Peyğəmbərdən (Allahın salavatı və salamı onun üzərinə olsun) Ənsar haqqında belə dediyini rəvayət edilir: "Onları yalnız mömin sevər və münafiqdən başqa heç kim onlara nifrət etməz. Kim onları sevsə, Allah da onu sevər. Kim onlara nifrət edərsə, Allah da ona nifrət edər”

Bəradan (Allah ondan razı olsun) belə söylədiyi rəvayət edilir: Peyğəmbərdən (Allahın salavatı və salamı onun üzərinə olsun) Ənsar haqqında belə dediyini rəvayət edilir: "Onları yalnız mömin sevər və münafiqdən başqa heç kim onlara nifrət etməz. Kim onları sevsə, Allah da onu sevər. Kim onlara nifrət edərsə, Allah da ona nifrət edər”.
[Səhih] [Müttəfəqun aleyhi(əl-Buxari və Musliminsəhih gördüyü hədislər)]

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) buyurdu ki, Mədinə əhlindən olan Ənsarı sevmək kamil imanın əlamətidir. Bu, onların İslamı və Peyğəmbəri (Allahın salavatı və salamı onun üzərinə olsun) dəstəkləməkdə öndə olmaları , müsəlmanlara sığınacaq vermək üçün çalışmaları və Allah yolunda mal və canlarını verdiklərinə görədir. Onlara nifrət etmək isə nifaq əlamətidir. Sonra Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) bəyan etdi ki, kim Ənsarı sevərsə, Allah da onu sevər, kim onlara nifrət edərsə, Allah da ona nifrət edər.

https://sunnah.global/hadeeth/az/show/3438